

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti**

Sayı: 99 (21.000)

27 may 2014-cü il, çərşənbə axşamı

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Türkiyə Respublikasının xarici işlər naziri Əhməd Davudoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Dövlətimizin başçısı Türkiyə, Azərbaycan və Türkmənistan xarici işlər nazirlərinin yeni formatda keçiriləcək görüşünün önəmini vurğuladı və bu görüşün nəticələrinin uğurlu olacağına əminliyini ifadə etdi. Prezident İlham Əliyev xarici işlər nazirləri səviyyəsində keçirilən bu cür görüşlərin ölkələrimiz arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi və digər sahələrdə daha da genişləndirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün səmərəli bir format olduğunu vurğuladı.

Türkiyə Respublikasının xarici işlər naziri Əhməd Davudoğlu ölkələrimizin təşəbbüsü ilə reallaşan Türkiyə-Azərbaycan-İran, Türkiyə-Azərbaycan-Gürcüstan və Türkiyə-Azərbaycan-Türkmənistan arasında yeni əməkdaşlıq formatının əhəmiyyətini qeyd etdi.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Türkiyə Respublikasının daxili işlər naziri Efkan Alanı qəbul etmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 26-da Türkmənistanın xarici işlər naziri Rəşid Meredovu qəbul etmişdir.

## Naxçıvan Muxtar Respublikası Gənclərinin VII Konfransı keçirilib





***Dünən Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Naxçıvan Muxtar Respublikası Gənclərinin VII Konfransı keçirilib.***

Konfransı giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov gündəlikdə iki məsələnin durduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, konfransda Naxçıvan Muxtar Respublikasında gənclər siyasəti ilə bağlı həyata keçirilən işlərə dair hesabat məruzəsinin dinlənilməsi və Azərbaycan Gənclərinin VII Forumuna nümayəndələrin seçilməsi nəzərdə tutulur.

Muxtar respublikanın müxtəlif şəhər və rayonlarını təmsil edən 406 nümayəndə əvvəlcə konfransın rəyasət heyəti və katibliyinin tərkibini seçib. Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev, Naxçıvan Dövlət Universitetinin müəllimi Seymur Talıbov, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi Aparatının Gənclərlə iş şöbəsinin müdiri Canməmməd Canməmmədov, Azərbaycan Respublikası Tələbə-Gənclər Təşkilatları İttifaqının sədr müavini, Naxçıvan Dövlət Universiteti Tələbə-Gənclər Təşkilatının sədri Arzu Abdullayev rəyasət heyətinin üzvləri, Naxçıvan Müəllimlər İnstitutunun Tələbə-Gənclər Təşkilatının sədri Qəmər Rəhimova, Naxçıvan Dövlət Universiteti Tələbə Elmi Cəmiyyətinin sədri, Prezident təqaüdçüsü Ramazan Abdullayev və Culfa Rayon İcra Hakimiyyətinin şöbə müdiri, Yeni Azərbaycan Partiyası Culfa Rayon Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin sədri Təbriz Hüseynzadə katibliyin üzvləri seçiliblər.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov Naxçıvan Muxtar Respublikasında gənclər siyasəti ilə bağlı həyata keçirilən işlərə dair hesabat məruzəsi ilə çıxış edib. Qeyd edilib ki, dövlət gənclər siyasəti Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirilir. Son illər gənclərin muxtar respublikanın ictimai-siyasi, iqtisadi-mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramlarının səmərəli həyata keçirilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin irəli çəkilməsi və xidmətlərinin qiymətləndirilməsi, bütövlükdə, dövlət gənclər siyasətinin həyata keçirilməsi istiqamətində atılan mühüm addımlardır. Bu gün muxtar respublikamızda gənclərin sosial müdafiəsinin və məşğulluğunun təmin edilməsi, yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli ruhda tərbiyəsi, hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, sağlam həyat tərzinin təbliği də diqqət mərkəzindədir.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanı muxtar respublikamızda gənclərə göstərilən yüksək diqqət və qayğının daha bir ifadəsidir. Həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərmanları ilə "Naxçıvan Muxtar Respublikasının Gənc İstedadlarının "Qızıl kitabı"nın təsis edilməsi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun yaradılması regionumuzda gənclərin cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi istiqamətində atılan mühüm addımlardır. Hazırda muxtar respublika əhalisinin 134 min nəfərdən çoxunu, yaxud 31 faizini 14-29 yaşda gənclər təşkil edir.

Nazir muxtar respublika gənclərinə göstərdiyi diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə konfrans iştirakçıları adından minnətdarlıq ifadə edib.

Məruzə ətrafında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev, Naxçıvan Dövlət Universiteti Tələbə-Gənclər Təşkilatının sədri Arzu Abdullayev, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin aparıcı məsləhətçisi Ayşən Əsgərova, Naxçıvan Dövlət Universitetinin tələbəsi Çilənay Qurbanlı, Heydər Əliyev adına Hərbi Liseyin şəxsi heyətlə iş üzrə bölmə komandirinin müavini, baş leytenant Cabir Bəxtiyarov çıxış ediblər.

Sonda Azərbaycan Gənclərinin VII Forumunda iştirak etmək üçün namizədlikləri irəli sürülən nümayəndələrin siyahısı oxunub və açıq səsvermə yolu ilə iştirakçılar seçilib.

## Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisidir

***Naxçıvan Dövlət Universitetində 28 May – Respublika Gününə həsr olunmuş silsilə tədbirlər çərçivəsində Heydər Əliyev Universitetinin "Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisidir" mövzusunda 183-cü məşğələsi keçirilib.***



Məşğələni giriş sözü ilə açan universitetin rektoru, professor Saleh Məhərrəmov müstəqil Azərbaycanın keçdiyi tarixi inkişaf yoluna nəzər salaraq dövlət müstəqilliyimizin qorunub saxlanılması, möhkəmləndirilməsi və daha da inkişaf etdirilməsində ümummilli lider Heydər Əliyevin tarixi xidmətlərindən danışıb. Rektor müsəlman Şərqində ilk dünyəvi demokratik dövlətin 96 il öncə məhz Azərbaycanda qurulduğunu diqqətə çatdırıb. Bildirilib ki, bu gün müstəqil, azad və dünyada söz sahibi olan Azərbaycan Respublikası əldə etdiyi sosial-iqtisadi uğurlarla nəinki bölgənin, hətta dünyanın sayılıb-seçilən dövlətlərindən birinə çevrilib. Artıq ölkəmizin özünəməxsus sosial-iqtisadi inkişaf modeli əksər ölkələr tərəfindən nümunə kimi qəbul olunmaqdadır.

Məşğələdə "Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin banisidir" mövzusunda məruzə ilə çıxış edən Beynəlxalq münasibətlər kafedrasının müdiri, fəlsəfə doktoru, dosent Yusif Hüseynov qeyd edib ki, ulu öndər Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra xalqımız müstəqilliyin ilk illərində üzləşdiyi təhlükələrdən xilas olub, bütün sahələrdə uğurlu islahatlara başlanılıb. Məruzəçi Azərbaycanın bütün sahələrdə dünyanın aparıcı ölkələri ilə bir sırada durduğunu faktlarla məşğələ iştirakçılarının diqqətinə çatdırıb. Məruzədə Azərbaycanın dövlətçiliyinin inkişafında misilsiz tarixi xidmətləri olan, milli dövlətçiliyimizin memarı və qurucusu dahi rəhbər Heydər Əliyevin zəngin və həmişəyaşar irsinin sistemli şəkildə araşdırılmasının, elmi əsaslarla öyrənilməsinin və təbliğinin ən vacib məsələlərdən olduğu bildirilib.

## Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində vakant dövlət qulluğu vəzifələrini tutmaq üçün test imtahanı keçirilib



Dünən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyində inzibati vəzifələrin VI-VII təsnifatlarına uyğun vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün elan edilmiş müsabiqə üzrə test imtahanı keçirilmişdir. Test imtahanında 17 nəfər namizəd iştirak etmişdir. Namizədlərə qanunvericilik bilikləri üzrə 40, məntiqi təfəkkürün yoxlanılması üzrə 30, ümumi dünyagörüşü bilikləri üzrə 15, kompüter bilikləri üzrə 15 olmaqla, 100 test sualı təqdim olunmuşdur. İmtahandan dərhal sonra namizədlərə cavab kartı və test imtahanının nəticəsinə dair arayış verilmişdir. Müsabiqə qaydalarına uyğun olaraq, test imtahanında müvafiq keçid balını toplamış namizədlər müsahibə mərhələsində iştirak etmək hüququ qazanmışlar.

Qeyd edək ki, müsabiqəyə təqdim olunmuş vakant vəzifələr, əsasən, mühəndis, memarlıq, iqtisadiyyat, fövqəladə halların nəticələrinin aradan qaldırılması, mətbuat və ictimaiyyətlə əlaqələr ixtisaslaşmaları üzrə vakant vəzifələrdən ibarətdir. İki saat 30 dəqiqə vaxt ayrılmış imtahanda Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşları müşahidəçi qismində iştirak etmişlər.

**Xəbərlər şöbəsi**

## Azərbaycan Xalq Cümhuriyyəti dövründə Naxçıvan



*Yeni Azərbaycan Partiyası (YAP) Naxçıvan Şəhər Təşkilatı 28 May – Respublika Günü və Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyi münasibətilə Naxçıvan Dövlət Tarix Muzeyində "Azərbaycan Xalq Cümhuriyyəti dövründə Naxçıvan" mövzusunda elmi-praktik konfrans keçirilmişdir.*

Konfransı giriş sözü ilə açan muzeyin direktoru Nizami Rəhimov 1918-ci il mayın 28-də yaradılmış və cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdə mühüm yer tutduğunu vurğulamışdır.

Konfransda AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, professor Fəxrəddin Səfərli "Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan", həmin institutun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru İlhami Əliyev "Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və fəaliyyəti", Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərli "Naxçıvan Muxtar Respublikasının yaradılması" mövzularında məruzələrlə çıxış etmişlər.

Qeyd olunmuşdur ki, Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət mövcud olmasına baxmayaraq, Azərbaycan tarixinin xüsusi səhifəsini təşkil edir. Belə ki, müsəlman Şərqində ilk parlamentli demokratik respublika olan cümhuriyyət çox mühüm dövlətçilik tədbirləri həyata keçirmiş, qadınlara seçki hüququ tanıyan ilk dövlətlərdən olmuşdur. Lakin 1920-ci ilin aprelində Azərbaycanın Sovet Rusiyası tərəfindən istila edilməsi həmin tədbirləri tam başa çatdırmağa və müstəqil dövlətçiliyimizin yaşamasına imkan verməmişdir. Xalq cümhuriyyəti dövründə erməni təcavüzü ilə üz-üzə qalmış Naxçıvan daim cümhuriyyət rəhbərlərinin diqqət mərkəzində olmuş, onlar Naxçıvanın Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılması istiqamətində mümkün olan bütün tədbirləri görmüşlər. 1919-cu ilin fevral ayında Naxçıvan general-qubernatorluğu təsis olunmuş, əvvəlcə B.Naxçıvanski, sonra isə S.Cəmillinski Naxçıvana general-qubernator təyin edilmişlər. Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərliyi Naxçıvanın düşmən işğalından qorunması üçün maddi və hərbi yardımlar göstərmiş, bölgədə qurulan ingilis və amerikan idarəçilik rejimləri ilə mütəmadi danışıqlar aparmışdır.

Lakin yaranmış gərgin beynəlxalq şəraitdə imperialist dövlətlərin erməni təcavüzünə fəal hərbi-siyasi dəstək verməsi və cümhuriyyətin süqutu nəticəsində Naxçıvan məsələsini 1918-1920-ci illərdə tam həll etmək mümkün olmamışdır.

Bildirilmişdir ki,1920-ci ilin sonlarında B.Şahtaxtinskinin Naxçıvana gələrək yerli əhalinin müqavimətini erməni işğalına qarşı səfərbər etməsindən, 1921-ci ilin yanvarında isə Naxçıvanda keçirilən rəy sorğusunda əhalinin 90 faizindən çoxunun bölgənin Azərbaycanın tərkib hissəsi kimi qalmasına səs verməsindən sonra Naxçıvan məsələsi qəti həll olunmuşdur. 1921-ci il martın 16-da Moskva, oktyabrın 13-də isə Qars müqavilələri imzalanmışdır. 1924-cü il fevralın 9-da Naxçıvan muxtar respublika elan edilmiş, 1926-cı ildə onun ilk Konstitusiyası qəbul olunmuşdur. Beləliklə, Naxçıvanın Azərbaycanın tərkibində əbədi qalması məsələsi öz həllini tapmışdır.

Konfransa Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli yekun vurmuşdur.

*Dünən Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə 28 May – Respublika Günü münasibətilə tədbir keçirilmişdir. Tədbir başlanmazdan əvvəl məktəbin müəllim və şagirdləri məktəbin foyesində təşkil olunan sərgiyə baxmışlar.*

## Respublika Günü qeyd olunub

Tədbiri giriş sözü ilə təhsil ocağının direktoru Şərəf Qasımova açaraq keçirilən tədbirin məqsəd və mahiyyətindən danışmışdır.

Məktəbin tarix müəllimi Günay Əliyeva çıxış edərək demişdir ki, 96 il bundan əvvəl qurulan Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk demokratik respublika olmuşdur. Həmin dövrdə son dərəcə cəsarətli bir addım kimi qiymətləndirilən demokratik dövlət modelinin yaradılması Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində yeni bir mərhələnin başlanğıcı idi. Qeyd olunmuşdur ki, 1991-ci ildə müstəqilliyini yenidən bərpa edən Azərbaycan Respublikası ölkədaxili çəkişmələr və hakimiyyət mübarizəsi nəticəsində öz müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdi. Belə bir dövrdə ümummilli liderimiz Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıtması ilə ölkəmizdə sabitlik yaradılmış, qanunçuluq, demokratik prinsiplər bərqərar edilmiş, müstəqilliyimiz əbədi və dönməz xarakter almışdır. Ulu öndərin müəyyənləşdirdiyi siyasi xətt bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Sonra tədbir iştirakçıları 28 May – Respublika Gününə həsr olunmuş sənədli filmə baxmışlar.

**Xəbərlər şöbəsi**

***1918-ci ildə Azərbaycanın müstəqilliyini əldə etməsi nə qədər mühüm və qürurverici hadisədirsə, yeni qurulan dövlətin üsuli-idarəsinin cümhuriyyət – respublika kimi təsbit olunması o qədər mühümdür, o qədər qürurvericidir. Ümummilli lider Heydər Əliyevin 30 yanvar 1998-ci ildə imzaladığı "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinin keçirilməsi haqqında" Sərəncamda da deyildiyi kimi: "Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti istiqlaliyyətimizi elan edərək xalqımızın müstəqillik əzmini nümayiş etdirmişdir".***

## Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin naxçıvanlı nümayəndələri



Yarandığı gündən bəri demokratik idarəçilik prinsiplərinin bərqərar olması istiqamətində mühüm addımlar atan Azərbaycan Xalq Cümhuriyyəti həm də bütün Şərqin, müsəlman və türk dünyasının tarixinə ilk parlamentli respublika kimi düşmüşdür. Təsadüfi deyildir ki, paytaxt Bakıya köçdükdən sonra Fətəli xan Xoyskinin rəhbərlik etdiyi hökumət Müəssislər Məclisinin çağırılması üçün hazırlıqlar görməyə başladı və bu məqsədlə komissiya yaradıldı. Əslində, cümhuriyyət yarandığı gündən bəri 44 nəfərlik Milli Şuranın özü, bir növ, parlament kimi fəaliyyət göstərmiş, 1918-ci ilin may-iyun aylarında və həmin ilin noyabr-dekabr aylarında rəsmi parlamentin açılışına qədər Milli Şura 10 iclasını keçirmişdi.

### Şərqin ilk parlamenti

Milli Şuranın 1918-ci ilin 19 noyabr tarixli iclasında parlamentə seçkilər məsələsi müzakirə edilmiş, o dövr və şərait üçün həddindən artıq demokratik prinsiplər irəli sürülmüşdü.

1918-ci il dekabrın 7-də Hacı Zeynalabdin Tağıyevin Qızlar məktəbinin binasında Azərbaycan Parlamenti ilk iclasını keçirmişdir. Əlimərdan bəy Topçubaşov parlamentin sədri, Həsən bəy Ağayev isə parlament sədrinin birinci müavini seçilmişlər. Topçubaşov Paris Sülh Konfransına gedən nümayəndə heyətinin rəhbəri olduğu bir şəraitdə Həsən bəy Ağayev parlamentə rəhbərlik edirdi.

Fəaliyyəti boyunca 11 fraksiya və qrupun fəaliyyət göstərdiyi tam demokratik əsaslı parlamentin 145 iclası keçirilmişdir. Parlamentin ilk iclası 1918-ci il dekabrın 7-də, son iclası isə 1920-ci il aprelin 27-də olmuşdur. Tariximizin birinci parlamentində müzakirəyə 270-dən artıq qanun layihəsi çıxarılmış və onlardan 230-a yaxını qəbul edilmiş, parlamentin 11 komissiyası fəaliyyət göstərmişdir.

### Parlamentin naxçıvanlı nümayəndələri

Yuxarıda da qeyd etdiyimiz kimi, parlamentə Milli Şuranın 44 nəfər üzvündən başqa, daha 36 müsəlman nümayəndə seçilməsi qərara alınmışdı. Araşdırmalarımız göstərir ki, nümayəndələrin 5 nəfərinin Naxçıvan və bu gün tarixi Naxçıvan əraziləri dediyimiz bölgələrdən seçilməsi nəzərdə tutulmuşdur. Naxçıvan, Şərur və Ordubad qəzalarının hər birindən bir nəfər, Zəngəzur qəzasından isə 2 nəfər nümayəndə parlamentə seçilməli idi.

Parlament üzvlərinin siyahısına baxdığımız zaman məlum olur ki, Naxçıvan qəzasından Qasım bəy Camalbəyov, Ordubad qəzasından İbrahim Əbilov, Zəngəzur qəzasından Cəlil bəy Sultanov və Məmməd Sadıq Axundzadə parlamentin üzvü olmuşlar. Lakin apardığımız bəzi araşdırmalar göstərir ki, Qasım bəy Camalbəyov Milli Şuranın 44 nümayəndəsindən biri olmuşdur. Həlalik, parlamentə Naxçıvan qəzasından və Şərur qəzasından seçilən nümayəndələrin kimliyini dəqiqləşdirə bilməmişik. Ola bilsin ki, o dövrdə Naxçıvandakı şərait seçkinin keçirilməsinə imkan verməmişdir.

Parlamentin Naxçıvan qəzasından olan deputatlarından biri Qasım bəy Camalbəyov olmuşdur. Özünün siyasi istedadı və fərdi diplomatik xüsusiyyətləri sayəsində Qasım bəy Camalbəyov həm Rusiya imperiyası dövründə, həm Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti illərində, həm də Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra ictimai-siyasi proseslərin mərkəzində yer almağı bacarmış, mövcud quruluş və ictimai-siyasi şəraitdən asılı olmayaraq, Azərbaycan uğrunda özünün doğru bildiyi istiqamətlərdə fəaliyyət göstərmişdir.

Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasından sonra Qasım bəy Camalbəyov əvvəlcə Tiflisdə fəaliyyət göstərən Milli Şuranın üzvlərindən biri, sonralar isə parlamentin deputatı olur. Camalbəyov Milli Şura tərkibinə daxil olarkən burada Cəfər Axundovu əvəzləmişdir. Çünki onun şuraya daxilolma məsələsi 1918-ci il iyunun 1-də Tiflisdə keçmiş Canişin sarayında H.Ağayevin sədrliyi ilə keçirilən Müsəlman Milli Şurasının üçüncü iclasında müzakirə edilmişdir. Yəqin ki, "İstiqlal Bəyannaməsi"nin qəbulu zamanı bitərəf qalan C.Axundov sonradan Milli Şuranın tərkibindən çıxmışdır. Milli hökumətin Gəncədəki fəaliyyəti zamanı da Q.Camalbəyov Milli Şuranın üzvü kimi fəaliyyət göstərmişdir. Çünki 1918-ci il iyun ayının 17-də qəbul olunmuş "Azərbaycan Milli Şurasının ikinci müvəqqəti hökumətin heyəti haqqında qərarı"nda Milli Şuranın digər üzvləri ilə bir sırada Qasım bəy Camalbəyovun da adı çəkilir.

1918-ci il dekabrın 7-də açılan Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sosialist fraksiyasında təmsil olunan Qasım bəy Camalbəyov parlamentin işində fəal iştirak etmiş, Müəssislər Məclisinin çağırılması üzrə mərkəzi komissiyanın üzvü olmuşdur. Qeyd edək ki, 1918-ci il dekabrın 7-də açılan Azərbaycan Xalq Cümhuriyyəti Parlamentində sosialistlər 12 deputatla təmsil olunurdular. Bəzi arxiv sənədlərindən məlum olur ki, parlamentin deputatı kimi fəaliyyət göstərdiyi illərdə Q.Camalbəyov Bakıda Qala 27 (Крепостная 27) ünvanında yerləşən mənzildə yaşamışdır.

Qasım bəy Camalbəyovun maraqlı çıxışlarından biri 25 avqust 1919-cu ildə keçirilən parlamentin 68-ci iclasında Azərbaycan darülfünunun (Azərbaycan Universiteti) təşkili ilə bağlı məsələ ilə əlaqədar olmuşdur. Bu çıxışında Camalbəyov universitet üçün yeni bina tikilməsinə qədər bəzi binaların universitetin səlahiyyətinə verilməsi fikrini müdafiə etmişdir.

Camalbəyov parlamentin 1919-cu ilin sentyabr ayında keçirilən 70-ci iclasında da Azərbaycan darülfünunun təşkili haqqında qanun layihəsinin 3-cü oxunuşunun müzakirəsində və xarici ölkələrə yüz nəfər tələbənin göndərilməsi ilə bağlı qanun layihəsinin müzakirələrində fəal iştirak etmişdir. Ümumilikdə, parlamentin iclaslarının stenoqrafik yazılarından aydın olur ki, Qasım bəy Camalbəyov Zəngəzur qaçqınları məsələsinin, Qarabağda ermənilər tərəfindən törədilən qanlı qırğınlarla bağlı məsələlərin müzakirəsində bir çox diqqətçəkən məsələlərə toxunmuşdur.

Parlamentdə Ordubad qəzasının nümayəndəsi olan İbrahim Əbilov 2 oktyabr 1919-cu il keçirilən parlamentin 80-ci iclasında torpaq məsələsinin müzakirəsi zamanı məsələnin yubadılması ilə bağlı etirazını bildirmiş və bu istiqamətdə parlamentdəki müxtəlif fraksiyalar arasında polemikalar genişlənmişdi. O, parlamentin 1919-cu ilin oktyabr ayının 21-də keçirilən 89-cu iclasında Mətbuat nizamnaməsi haqqında qanun layihəsinin üçüncü müzakirəsi zamanı mətbuata senzuranın qoyulması məsələsinə etiraz etmişdi.

Cəlil bəy Sultanov və Mirzə Sadıq Axundzadənin parlamentdə məhz Zəngəzuru təmsil etməsini parlamentin 11 oktyabr 1919-cu il tarixli 82 nömrəli stenoqrammındakı aşağıdakı fikir sübut edir: *"İclası açmadan bərayi-məlumat xəbər verirəm ki, bugünkü iclasda Zəngəzur nümayəndəsi Cəlil bəy Sultanov iştirak edir. Keçən iclasda yenə həman qəzanın nümayəndəsi olan Mirzə Sadıq Axundzadə iştirak edirdi".*

### Parlamentdə Naxçıvan və Zəngəzur müzakirələri…

Naxçıvanlıların, zəngəzurluların erməni təcavüzünə qarşı əzmkar mübarizəsi dəfələrlə parlamentdə təqdir edilmiş və bu bölgələrlə bağlı qızğın müzakirələr aparılmışdır. Parlamentin 22 dekabr 1919-cu ildə keçirilən 109-cu iclasında danışan parlamentin üzvü Aslan bəy Səfikürdinski o illərdə naxçıvanlıların əzmkar mübarizəsinə diqqət çəkərək demişdir: *"...Sonra Naxçıvan, Zəngəzur, Vedibasar məsələlərinə keçəlim. Naxçıvan və Vedibasarın səsləri bütün Avropaya çıxdı, çünki onların nümayəndələri qəzetlərə xəbər verirlər və hökumətlərini xəbərdar etdilər. Bir vaxt erməni hökuməti və ingilis nümayəndələri getdilər Naxçıvan və Vedibasara, orda istiqbal etdilər, sonra isə fəhlə camaat onları qovub Azərbaycan Cümhuriyyəti şöbəsini təşkil etdilər. Böylə qeyrətli camaatı gözdən salmaq olmaz".*

Bu çıxışda naxçıvanlıların, zəngəzurluların, vedibasarlıların əzmkar mübarizəsi ilə yanaşı, bir məsələ də aydın olur. Məlum olur ki, Zəngəzurun məqsədli şəkildə ermənilərə verilməsi, Naxçıvanın Azərbaycandan aralı salınması siyasəti heç də sovetlər dönəmindən başlamamış, hələ 1918-1919-cu illərdə bölgədə söz sahibinə çevrilmək istəyən ingilislər və amerikalılar hər vəchlə Zəngəzur və Naxçıvan ərazilərini ermənilərin himayəsinə verməyə çalışmışlar.

Qeyd edək ki, parlamentin 22 mart 1920-ci il tarixli 132-ci iclasında ingilislərin Qafqazda ermənipərəst siyasəti haqqında danışılmışdı. Bu parlament iclasında əsas müzakirə mövzusu Qarsda müsəlmanlara qarşı ermənilər tərəfindən törədilən qırğınlar olmuşdur. Qeyd olunan bölgələrdə ermənilərə dəstək göstərmək məqsədilə ingilislərin ermənilərə avtomobillə gümüş pul göndərməsi məsələsini məhz bu iclasda parlamentin üzvü Əliheydər Qarayev səsləndirmişdir. İngilislərin ermənipərəst siyasətini tənqid edən Qarayev deyirdi: *"Odur ki, Qarabağda, Zəngəzurda, Karsda, bugün-sabah Naxçıvanda və Şərurda da erməniləri müsəlmanların üstünə qaldırıb, məzkurların işçilərini qırmaqla bugün-sabah bu siyasətlə hətta Azərbaycanın içini də tutacaqlar. Bu bədbəxt meşşan daşnakların qabağını almaq asandır, lakin onların dalında duran böyük qüvvəni yıxmaq lazımdır. Unutmayın ki, həqiqətə açıq gözlə baxmalıyıq. Bu gün bədbəxt mişaflardan bir şey çıxmaz. Siz gərək o qüvvəyə inanmayasınız. Qəzetələrdə oxudunuzmu ki, Fransa imperialistləri general Andranikə böyük bir medalyon vermişdir. Əcəba bu medalı nə kimi qəhrəmanlıqlara görə vermişlər? Haman qəhrəmanlıqlara görəmi ki, Naxçıvan, Şərur və bir çox başqa müsəlman yerlərini yer ilə yeksan etmişdir".*

***Bütün bu müzakirələrlə, qəbul edilən qanunlarla tanış olduqca bir daha qürur duyursan ki, XX əsrin əvvəllərində qurulan Azərbaycan Xalq Cümhuriyyəti o dövrün ən demokratik quruluşlarından biri olmuşdur. Tariximizin birinci respublikasının dövründə əsası qoyulan ənənələrin varisliyi müasir müstəqil Azərbaycan Respublikasının fəaliyyəti ilə tam təmin olunur.***

✍ **Elnur KƏLBİZADƏ**

*Naxçıvan Muxtar Respublikası – 90*

# Muxtariyyətin ilk illərində Naxçıvan səhiyyəsi

***Muxtar respublikamızda səhiyyənin tarixi qədim dövrlərdən başlasa da, onun dövlət səviyyəsində təşkilatlanması ötən əsrin iyirminci illərinə – muxtariyyətin qazanıldığı dövrə təsadüf edir. Naxçıvan İnqilab Komitəsinin 1920-ci il 10 oktyabr tarixli qərarı ilə Naxçıvanda ilk səhiyyə şöbəsi, 1921-ci il dekabrın 24-dən isə Azərbaycan Xalq Səhiyyə Komissarlığının Naxçıvan Diyar Əlahiddə Səhiyyə İdarəsi fəaliyyətə başlamışdır. 1924-cü il yanvarın 18-də Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Xalq Səhiyyə Komissarlığı yaradılmış, bununla da, səhiyyə sistemininin dövlət tərəfindən tənzimlənməsinin əsası qoyulmuşdur. Bu dövrdən etibarən Naxçıvan səhiyyəsi iyirminci əsrin elmi-texniki tərəqqisindən bəhrələnərək əhalinin sağlamlığının əsl mühafizəçisinə çevrilmişdir.***



***1930-cu ildə Naxçıvan şəhərində təşkil edilmiş səhiyyə sərgisi***

Bərpa, sənayeləşmə, kənd təsərrüfatının kollektivləşməsi dövründə səhiyyə sahəsi (1920-1932-ci illər) təşkilatlanma dövrü keçmiş, onun maddi-texniki bazası yaradılmışdır. Qeyd etmək lazımdır ki, muxtariyyətin qazanıldığı ilk illərdə səhiyyə işini yenidən bərpa etmək, əhaliyə tibbi xidməti təşkil etmək o qədər də tez başa gəlmədi. Mərkəzi səhiyyə orqanları, xüsusən Azərbaycan Səhiyyə Komissarlığı ilə əlaqənin tam bərpa edilməməsi, əvvəllər sayca çox az olan müalicə müəssisələrinin dağıdılması, olub-qalan tibb işçilərinin hərc-mərclik nəticəsində 1918-1920-ci illərdə ölkəni tərk etmələri, xəstəliklərin, xüsusən yoluxucu xəstəliklərin həddindən artıq artması – bunlar hamısı yenicə təşkil edilmiş səhiyyə şöbəsinin fəaliyyətinə ciddi manelər, çətinliklər yaradırdı.

Naxçıvan MSSR Xalq Komissarları Sovetinin sədri Həmid Sultanov 1926-cı ildə öz məruzəsində səhiyyənin vəziyyətinə toxunaraq qeyd edir ki: "1925-ci ilə qədər respublikada əhalinin sağlamlığı üçün az iş görülüb. Belə vəziyyət hökumət qarşısında məsələ qoyur ki, ümumi sanitar vəziyyətin yaxşılaşdırılması, müalicə müəssisələrinin genişləndirilməsi və onun kənd yerlərinə yaxınlaşdırılması üçün tədbirlər həyata keçirilsin".

Naxçıvan MSSR xalq səhiyyə komissarı Məmməd İsmayıl (Baba) Allahverdi oğlu Qədimov 4 oktyabr 1925-ci ildə Azərbaycan SSR Xalq Səhiyyə Komissarlığının kollegiya iclasında Naxçıvanda səhiyyənin vəziyyətini ətraflı təhlil edir. O göstərir ki, malyariya ölkə əhalisinin əsas qənimi və bəlasıdır. Şərurda əhali az qala 100 faiz, Naxçıvan qəzasında 50-70 faiz, Ordubadın cənub hissəsində 12 faiz malyariya xəstəliyinə tutulmuşdur. Statistik rəqəmlərdən aydın olur ki, əhalinin 30 faizi göz xəstəliyi traxoma ilə xəstələnir. Daha sonra o qeyd edir ki, mamaların çatışmaması üzündən ara mamalarla mübarizə aparmaq çətindir. Sanitar maarifi işi həkim olmadığından zəif aparılır.

1925-ci il oktyabr ayının axırında Naxçıvanda səhiyyə işinin vəziyyəti ilə şəxsən tanış olmaq və ona kömək etmək məqsədilə Azərbaycan SSR xalq səhiyyə komissarı Mövsüm Qədirli Naxçıvana gəlir. O, vəziyyətlə tanış olduqdan sonra 1 noyabr 1925-ci ildə Naxçıvan MSSR həkimlərinin birinci qurultayı çağırılır. Qurultay Naxçıvanda səhiyyənin vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında qərar qəbul edir. Qurultay səhiyyə işində olan nöqsanları və onların gələcəkdə aradan qaldırılması yollarını göstərir.

M.Qədirli Naxçıvandan gedəndən beş gün sonra (5 noyabr) L.P.Solovyev adına Azərbaycan Qırmızı Aypara Cəmiyyətinin həkim-sanitar dəstəsi Naxçıvana gəlir və Şərurdakı kənd əhalisinə kömək göstərir. Bundan başqa, 1925-ci ildə Bakıdan muxtar respublikanın tibb müəssisələri üçün çoxlu tibb avadanlığı, çarpayılar, laboratoriya ləvazimatı və sair göndərilir.

O dövrdə müalicə-profilaktika müəssisələrinin binaları sanitar-gigiyenik tələblərə cavab vermədiyinə görə 1925-ci ildə bir sıra tədbirlər həyata keçirilir. Belə ki, Naxçıvan şəhər xəstəxanasının binası yenidən tikilərək 150 çarpayılıq üçün hazırlanır, uşaq məsləhətxanasının binası əsaslı təmir edilir. Habelə Ordubadda şəhər ambulatoriyası və xəstəxana binaları, Şərurda Baş Noraşen (indiki Cəlilkənd) həkim məntəqəsinin, malyariya stansiyasının, Ordubad qəzasındakı həkim məntəqəsinin yerləşdiyi binalar təmir olunur. Bundan başqa, yeni tikintilərə və başqa müalicə idarələrinin təmirinə başlanılır. Bu məqsədlə sosial sığorta tərəfindən 40000 manat pul buraxılır və bu işlərə xərclənir. Elə həmin ildə uşaqların səhhətinin mühafizəsi və sığorta olunanlara tibbi yardım göstərilməsi işinə də diqqət artırılır.

1925-ci ildə müalicə şəbəkəsi xeyli artır. Naxçıvan şəhərində 30 çarpayılıq zöhrəvi dispanser, diş ambulatoriyası, sığortaolunanlar üçün həkim ambulatoriyası, uşaq evi nəzdində ambulatoriya, iki feldşer ambulatoriyası, uşaq məsləhətxanası (süd mətbəxi ilə) açılır. Bundan başqa, daimi həkim komissiyası və kimyəvi-bakterioloji laboratoriya təşkil olunur. Ordubad qəzasında Ordubad şəhər xəstəxanası (10 çarpayılıq) və şəhər ambulatoriyası genişləndirilir, bundan başqa, Culfada və Çənnəbdə feldşer məntəqəsi həkim məntəqəsinə çevrilir.

1926-cı ildə Naxçıvan şəhər ambulatoriyası genişləndirilir və mərkəzi ambulatoriyaya çevrilir. Onun nəzdində göz, cərrahi, terapevtik, dəri-zöhrəvi, ginekoloji, diş kabinələri, diş texniki laboratoriyası təşkil edilir. Bu kabinələr həkimlərlə təmin olunur.

1927-ci ildə muxtar respublikada səhiyyə şəbəkəsinin vəziyyəti belə idi: 115 çarpayılıq 2 xəstəxana, 30 çarpayılıq zöhrəvi dispanser, 10 çarpayılıq malyariya stansiyası, 7 ambulatoriya, uşaq məsləhətxanası, bakterioloji laboratoriya, 4 həkim məntəqəsi, 2 səhiyyə məntəqəsi, 4 feldşer məntəqəsi, 4 aptek əhaliyə tibbi xidmət göstərirdi. Bu müəssisələrdə 22 həkim, 2 diş həkimi, 1 diş texniki, 18 feldşer, 15 tibb bacısı, 8 mama, 9 əczaçı və 87 kiçik və texniki heyət işləyirdi.

Bu dövrdə tibb müəssisələrinin sayı artır, onların yeni aparatlarla təchizatı yaxşılaşdırılırdı. Tibb kadrlarının sayının, stasionar xidmətin artımı da nəzərə çarpırdı. Əgər 1924-25-ci illərdə respublika xəstəxanasına 642 xəstə daxil olmuşdursa, 1928-29-cu illərdə 2782 xəstə daxil olmuşdur. Səhiyyənin büdcəsi də hər il artırdı. Əgər 1924-25-ci illərdə səhiyyə xərclərinə 77883 manat buraxılmışdırsa, bu rəqəm 1926-27-ci illərdə 278072 manat və ya 1924-25-ci illərə nisbətən 3,5 dəfə artıq olmuşdur.

1930-cu ildə tibb müəssisələrinin tikintisi geniş vüsət almışdır. Bunu Naxçıvan MSSR Xalq Komissarları Sovetinin 8 may 1930-cu il qərarından görmək olar. Qərarda göstərilir: "Naxçıvan xalq səhiyyə naziri Ordubad rayonunun Bist kəndində 4 çarpayılıq həkim məntəqəsinin, Naxçıvan respublikasının başqa dağlıq hissəsində 6 çarpayılıq həkim məntəqəsinin, Naxçıvan respublikasının dağlıq hissəsində yerli əhəmiyyət kəsb edən 80 çarpayılıq istirahət evinin tikilməsi üçün Azərbaycan SSR xalq səhiyyə naziri ilə müqavilə bağlasın".

1930-cu ildə Naxçıvan mərkəzi şəhər ambulatoriyası genişləndirilərək şəhər poliklinikasına çevrilir. Elə həmin il sanitar maarifi evi təşkil edilir, səhiyyə məntəqələrinin sayı 6-ya çatdırılır. Naxçıvan şəhər uşaq məsləhətxanasında açılan qadın kabinəsi 1930-cu ildə qadın məsləhətxanasına çevrilir.

1931-ci ilin aprel ayında Naxçıvan MSSR-in ərazisində təbii fəlakət – zəlzələ baş verir. Nəticədə, xalq təsərrüfatına böyük ziyan dəyir. Tibb müəssisələri yerləşən binaların çoxu dağılır. Zəlzələ vaxtı xeyli adam ölür və yaralanır. Naxçıvan MSSR hökuməti fövqəladə bərpa komissiyası təşkil edir ki, səhiyyə xalq komissarı da bura daxil olur. Bu vaxt bütün güc zəlzələdən zərərçəkənlərə tibbi xidmət göstərməyə səfərbər edilir. Bu işdə Qırmızı Aypara Cəmiyyəti böyük kömək göstərir. Zərərçəkənlərə kömək göstərmək üçün tibb dəstələri, habelə yemək məntəqələri, uşaq yasliləri və sair təşkil olunur.

Həmin il zəlzələ fondu hesabına xəstəxanaların, yaslilərin və sair tikilməsinə başlanılır.

Naxçıvan MSSR Xalq Səhiyyə Komissarlığı yarandığı gündən vərəmə qarşı mübarizə aparmağı özünün əsas məsələsi hesab etmişdir. 1928-ci ildə muxtar respublikada 474 vərəmli xəstə (0,43 faiz) olmuşdur. Muxtariyyətin ilk illərində xüsusi tibb müəssisəsi olmadığına görə vərəmə qarşı mübarizə tədbirləri respublikanın ümumi tibb şəbəkəsi tərəfindən aparılırdı.

Əhalinin həyat şəraitinin aşağı səviyyədə olması, əlverişsiz sanitar-gigiyenik vəziyyət muxtariyyətin ilk illərində dərizöhrəvi xəstəliklərinin yayılmasına şərait yaratmışdır. Keçəllik, qotur və başqa dəri xəstəlikləri daha çox yayılmışdır. Ona görə də Səhiyyə Komissarlığı bu sahəyə də xüsusi diqqət yetirmişdir. Zöhrəvi xəstəliklərlə mübarizə aparmaq üçün 1925-ci ildə Naxçıvan şəhərində zöhrəvi dispanser, bir az sonra isə favazori, 1926-cı ildə Naxçıvan mərkəzi ambulatoriyası nəzdində dəri-zöhrəvi kabinə açılır.

Muxtariyyətin ilk illərində traxoma xəstəliyi əhali üçün böyük bəla idi. Traxomanın fəsadlaşması üzündən yüzlərlə əlil hadisəsi olurdu. Xəstəlik əhali arasında Arazətrafı düzənlikdə daha çox yayılmışdı. Odur ki, 1926-cı ildə ölkə xəstəxanasında göz şöbəsi, Naxçıvan mərkəzi ambulatoriyada isə göz kabinəsi, bir ildən sonra Ordubadda da göz kabinəsi təşkil edilir. 1930-cu ildə ölkə xəstəxanasında göz çarpayılarının sayı 30-a çatdırılır.

Əhali arasında sanitar maarifi işinin aparılmasına xüsusi diqqət yetirilmişdir. Əsas məqsəd əhalinin sağlamlığının qorunması və sanitar əmin-amanlığa nail olmaqdan ibarət idi. Sanitar maarifi əhalinin sanitar savadsızlığının ləğv edilməsində əsaslı rol oynamış, epidemik xəstəliklərlə mübarizə etmək yollarını, gigiyena elminin əhaliyə çatdırılmasını təmin etmişdir.

Epidemiya əleyhinə tədbirlərin təbliğ edilməsi ilə bərabər, ana və uşaqların mühafizəsi, yaşayış yerlərinin sanitar əmin-amanlığı, vərəmlə, dəri-zöhrəvi və başqa xəstəliklərlə mübarizə kimi vacib məsələlər mətbuatda işıqlandırılırdı.

1930-cu ildə Naxçıvan şəhərində sanitar maarifi evi təşkil edilir. Tezliklə orada sərgi düzəldilir ki, əhali oraya həvəslə gəlir.

Bütövlükdə, Naxçıvanda muxtariyyət əldə olunandan sonra gələnən nəticələr belədir: muxtariyyətin ilk günlərindən başlayaraq əhaliyə tibbi kömək göstərmək Naxçıvan İnqilab Komitəsinin əsas vəzifələrindən biri olmuşdur. Tibb müəssisələri bərpa edilmiş, yeniləri təşkil olunmuş, muxtar respublikanın fəhlə və kəndli əhalisinə pulsuz tibbi xidmət göstərilməyə başlanmışdır. Daha sonra tibb müəssisələrinin şəbəkəsi planlı surətdə inkişaf etmiş, ana və uşaq müəssisələri, epidemiya əleyhinə sanitar xidməti yaradılmış, səhiyyənin vəziyyətini yaxşılaşdırmaq haqqında dəfələrlə qərarlar qəbul olunmuşdur. İctimaiyyətin səhiyyə xətti üzrə özfəaliyyəti təşkil edilmiş, ictimaiyyətin fəalları və tibb işçiləri tərəfindən aparılan sanitar maarifi işi genişləndirilmişdir.

*(Ardı var)*

**Hüseyn ƏSGƏROV**
***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin əməkdaşı***

***Mayın 25-də Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) Bakı, Gəncə və Naxçıvan şəhərlərində 2014-2015-ci tədris ili üçün Azərbaycan Respublikası ali təhsil müəssisələrinin magistratura təhsil pilləsinə qəbul imtahanının ikinci mərhələsini keçirmişdir.***

## Magistratura təhsil pilləsinə qəbul imtahanının ikinci mərhələsi keçirilmişdir



Naxçıvan Muxtar Respublikasında Naxçıvan Dövlət Universitetində keçirilən imtahana hamısı muxtar respublikadan olmaqla, 22 nəzarətçi və 2 imtahan rəhbəri cəlb edilmişdi. 249 bakalavriatın iştirak etdiyi imtahan $13^{00}$-də başlamışdır.

İmtahan başlamazdan əvvəl imtahan keçiriləcək obyektin önündə bakalavriatlarla, onların valideynləri ilə görüşüb həmsöhbət olduq. Turanə Səfərli Naxçıvan Dövlət Universitetində tarix ixtisası üzrə təhsil alıb. O dedi:

– Təhsilimi davam etdirmək üçün magistratura təhsili almaq istəyirəm. Birinci turda 61 bal toplamışdım. İnanıram ki, ikinci turda da uğur qazanacağam.

Nurlan Məmmədov da 2012-ci ildə Naxçıvan Dövlət Universitetini bitirib. Onun dediklərindən:

– Mən ikinci dəfədir ki, ali təhsil müəssisələrinin magistratura təhsil pilləsinə qəbul imtahanında iştirak edirəm. Ötən il birinci turu keçsəm də, ikinci turda keçid balını toplaya bilməmişdim. Amma buna baxmayaraq, ruhdan düşmədim. Bu il ixtisasım üzrə daha ciddi hazırlaşdım. Bu dəfə özümə çox güvənirəm.

Valideynlərdən Azad Novruzovla həmsöhbət olduq. O dedi:

– Bu gün qızım Nurlana imtahan verəcək. O, 2009-cu ildə Naxçıvan Dövlət Universitetinin biologiya ixtisasını bitirib. İlk dəfədir, ali təhsil müəssisələrinin magistratura təhsil pilləsinə qəbul imtahanında iştirak edir. Bir ilə yaxındır, fənlər üzrə ciddi hazırlaşırdı. Elə bu əziyyətin bəhrəsini birinci turda gördük. O, 79 bal toplayaraq ailəmizi sevindirdi. Bu gün də ixtisası üzrə 50 sualı cavablandırmağa çalışacaq. Və ikinci turda da bu uğuru təkrarlayacağına şübhəm yoxdur.

İmtahan başa çatdıqdan sonra TQDK-nın Naxçıvan Muxtar Respublikası Regional Bölməsinin rəhbəri Sabir Məmmədov bakalavriatların öz bilik və bacarıqlarını göstərmək üçün ayrılan 1 saat 30 dəqiqə ərzində heç bir qayda pozuntusuna yol verilmədiyini qeyd etdi. Bildirdi ki, imtahanda bakalavriatlara seçdikləri proqram üzrə 5-i açıq olmaqla, 50 test tapşırığı təqdim olunmuşdur (bəzi proqramlar üzrə isə bakalavriatlar yazılı imtahan vermişlər). Hər düzgün cavab bir balla qiymətləndirilir, səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərmir.

İmtahandan yenicə çıxmış bakalavriat İlahə Əlisoya yaxınlaşırıq. Öyrənirik ki, 2013-cü ildə Naxçıvan Müəllimlər İnstitutunu bitirib. Birinci turda 66 bal toplayan İlahə bildirdi ki, sualların cavablandırılmasında çətinlik çəkməyib və suallara doğru cavab verdiyinə əmindir. 2010-cu ildə Naxçıvan Dövlət Universitetini bitirən Hüseyn Rəsulzadə isə dedi ki, imtahanda sakitlik tam təmin edilmişdi. Suallar o qədər də çətin deyildi.

Məlumat üçün bildirək ki, qəbul imtahanının birinci mərhələsinin nəticələrinə görə, müsabiqə şərtlərini ödəyən bakalavriatların proqram seçimi 2014-cü il mayın 1-dən 8-dək aparılmışdır. Onlar qeyd olunan müddət ərzində elektron ərizələrinə daxil olaraq bitirdikləri bakalavr ixtisasına uyğun qəbul proqramlarından birini seçib təsdiq etmişlər. Bu hüquqa malik olan bakalavriatlardan 10159 nəfəri qəbul proqramını seçərək təsdiqləmişdir. Bakalavriatların 4269 nəfərini oğlanlar, 5890 nəfərini isə qızlar təşkil edir. 6101 nəfər ali təhsil müəssisələrinin builki, 4058 nəfər isə əvvəlki illərin məzunudur.

Bakalavriatlara mayın 18-dən etibarən öz elektron ərizələrinə daxil olaraq "İmtahana buraxılış vərəqəsi"ni çap edib götürmək imkanı yaradılmışdı.

İmtahanın nəticələri TQDK-nın internet saytında yerləşdiriləcək. Qəbul imtahanının ikinci mərhələsinin nəticələri elan olunduqdan sonra keçid bal həddini keçmiş bakalavriatlar 2014-cü il mayın 29-dan iyunun 1-dək ali təhsil müəssisələrinin magistratura təhsil pilləsinə qəbul aparılan ixtisaslaşmaların müsabiqəsində iştirak etmək üçün internet vasitəsilə ixtisaslaşma seçimini yerinə yetirəcəklər.

**Sara ƏZİMOVA**

## Növbəti test-sınaq imtahanı

May ayının 25-də muxtar respublikanın ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri arasında test-sınaq imtahanı keçirilib. Ənənəvi olaraq təşkil edilən belə imtahanlarda məqsəd şagirdlərin biliyinin yoxlanılması və elmlərə marağının artırılması, ali və orta ixtisas məktəblərinə qəbul imtahanlarına hazırlıqdır.

İmtahanlar səhər saat $10^{00}$-da başlayıb və üç saat davam edib. Sual kitabçasında şagirdlərə hər qrup üzrə 5 fənnə aid 125 sual təqdim olunub. Şagirdlərə öz bilik və bacarıqlarını nümayiş etdirmək üçün hərtərəfli şərait yaradılıb.

İmtahanın nəticələri bu həftə elan ediləcəkdir.

**Xəbərlər şöbəsi**



# Prospektlər, məhəllələr, xiyabanlar, küçələr...

***Bu anlayışlarla, demək olar ki, hər gün hamımız qarşılaşırıq. Müxtəlif küçələrin, məhəllələrin, xiyabanların və prospektlərin adı dillər əzbəridir.***

Rəsmi və quru tərifdə küçə yol infrastrukturunun bir hissəsi olub, bir qayda olaraq, kənarında xüsusi sıra sayına malik binalar olan yoldur. Daha çox postsovet ölkələri üçün xarakterik olan prospekt anlayışı böyük şəhərlərdə ən böyük, uzun, geniş və daha çox mərkəzi xarakter daşıyan küçələri ifadə edir. Xiyaban isə daha çox hər iki tərəfdən parklar və bağlarla əhatələnmiş yolu ifadə edir. Bir sıra Şərq ölkələrində böyük küçələri elə xiyaban adlandırırlar. Daha çox milli xarakter daşıyan məhəllə isə özündə bir və ya bir neçə küçəni birləşdirə bilər.

Dünyada bu anlayışların hər biri ilə bağlı maraqlı faktlar var. Məsələn, Yaponiyada yolların adları olmur, San-Fransiskoda isə bir küçə hərlənərək, nəhayətində, özü-özü ilə qovuşur. Dünyada ən uzun küçə Rusiyanın Volqoqrad şəhərindədir. Bu küçənin uzunluğu 50 kilometrdir. Dünyadakı ən dar küçə də məhz şimal qonşumuzun ərazisindədir. Xasavyurtdakı bu küçənin eni cəmi 1 metrdir. Dünyanın ən qısa küçəsi Şotlandiyadadır. “Ebenizer” adlanan küçənin uzunluğu cəmi 2 metrdir. Braziliyada yerləşən dünyanın ən enli küçəsinin eni isə 250 metrdir.

Dünyanın ən qədim şəhərlərindən biri olan Naxçıvanın məhəllə, prospekt, xiyaban və küçələri də özünəməxsusluğu ilə seçilir. Qeyd etmək lazımdır ki, bütün orta əsrlər boyunca Şərq dünyası şəhərlərinin əksəriyyətində olduğu kimi, Naxçıvan şəhərində də, əsasən, “məhəllə” anlayışı xarakterik olmuşdur. Bəzi məlumatlarda XX əsrin əvvəllərində Naxçıvan şəhərində 10 məhəllənin adı çəkilir. Bunlar “Zaviyə”, “Şahab”, “Pirqəmiş”, “Əlixan”, “Sarvanlar”, “Gomayıl”, “Xoşulu”, “Atabəylər”, “Qurdlar”, “Qala” məhəllələri idi. Naxçıvan Şəhər İcra Hakimiyyətindən aldığımız məlumat siyahısında isə bu gün Naxçıvan şəhərində 1 prospekt, 32 məhəllə və 72 küçə olduğu göstərilir.

Naxçıvan şəhərinin prospekt, məhəllə və küçələri ilə bağlı yeni rubrika altında yazılara başlamaqda məqsədimiz onların tarixi barədə məlumat vermək, adlarını daşıdıqları şəxsiyyətləri insanlarımıza tanıtmaqdır. Düşünürük ki, şəhərimizdəki küçələrdə, prospekt və məhəllələrin hər birində onlar haqqında məlumat xarakterli lövhələrin olması hər daşı, hər küçəsi tarix olan Naxçıvanımızın həm tarixinin təbliği, həm də insanlarımızın müxtəlif şəxsiyyətlərlə bağlı məlumatlandırılması baxımından əhəmiyyətli ola bilər. Çünki adına küçə olan elə şəxslər var ki, cəmiyyətdə o insanlar haqqında hələ də yetərli informasiya yoxdur. Yaxud elə küçələrimiz var ki, əhali arasında onlar hələ də köhnə adları ilə tanınır. Elə məhəllələrimiz var ki, onların adları yoxdur, elə naxçıvanlı şəxsiyyətlər var ki, onların adına küçə və məhəllə yoxdur. Bu şəxsiyyətlər içərisində diplomatlar da var, yazıçılar da var, əmək qəhrəmanları da var, şairlər də...

İlk yazımızda isə əlimizdə olan siyahıya əsasən, Naxçıvan şəhərində olan prospekt, küçə və məhəllələrin maraqlı xüsusiyyətlərini müəyyənləşdirməyə çalışdıq. Məsələn, Naxçıvan şəhərində yerləşən 26 məhəllənin adı yoxdur, nömrəsi var. Küçələrimizlə bağlı digər bir maraqlı fakt şəhərimizdə “1 May”, Engels, Məşədi Əzizbəyov adlı küçələrin hələ də olması, Məhəmməd ağa Şahtaxtlı, Məhəmməd xan Təkinski, Əli Səbri Qasımov, Balabəy Əlibəyov, Rza Təhmasib kimi şəxslərin adına isə küçələrin və ya məhəllələrin olmamasıdır.

Prospektlər, küçələr və məhəllələrdə adlarını əbədiləşdirdiyimiz ümummilli lider Heydər Əliyev, Mustafa Kamal Atatürk, Nizami Gəncəvi, Əcəmi Naxçıvani, Həsən Əliyev, Əziz Əliyev, Nəsirəddin Tusi, Mirzə Ələkbər Sabir, Məmməd Araz, Abbas Zamanov, Behbud ağa Şahtaxtinski, Məhəmməd Füzuli, Cəmşid Naxçıvanski, Yusif Məmmədəliyev, Bəhruz Kəngərli, Şeyx Məhəmməd Xiyabani, Babək, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Kalbalı xan, Həzi Aslanov kimi şəxsiyyətlərlə bağlı cəmiyyətdə geniş məlumat var. Lakin adları artıq əbədiləşdirilmiş elə şəxsiyyətlər, Vətən qarşısında xidmətləri olan elə insanlar var ki, insanlarımız onlar haqqında o qədər də məlumatlı deyillər. Biz də bu rubrikada təqdim edəcəyimiz növbəti yazılarımızda müxtəlif küçə və məhəllələrimizin tarixi, yerləşdiyi ərazi, adlarını daşıdıqları şəxslər haqqında geniş söz açmağa çalışacağıq.

***Yolumuz işıqlı və uğurlu olsun! İnkişaf edən, gündən-günə gözəlləşən, böyüyən, küçələrinin və məhəllələrinin sayı artan Naxçıvanımızın prospektləri, küçələri kimi...***

**Elnur KƏLBİZADƏ**

## İməciliklər mütəşəkkilliklə davam etdirilir

***Muxtar respublikamızda günü-gündən geniş vüsət alan kompleks quruculuq tədbirlərinin mühüm istiqamətlərindən biri də ekoloji problemlərin həllinin, ətraf mühitin qorunmasının, təbiətin zənginləşdirilməsinin diqqət mərkəzində saxlanılmasıdır. Son 18 ildə Naxçıvanda yaşıllıq sahələrinin həcminin bir neçə dəfə artması, yurdumuzun yaşıllıqlar məskəninə çevrilməsi məhz belə tədbirlər nəticəsində mümkün olmuşdur. Bu sahədə görülən işlərin kəmiyyət və keyfiyyəti getdikcə yüksəlir. Cari ildə də bu tədbirlər mütəşəkkilliklə davam etdirilməkdə, meyvə bağlarının, yaşıllıq zolaqlarının, gülkarlıq sahələrinin həcmi genişləndirilməkdədir.***



Mayın 24-də keçirilən iməciliklər də yüksək səviyyədə təşkil olunmuşdu.

Həmin gün Naxçıvan şəhərinin sakinləri Babək rayonunun Nəzərabad kəndi yaxınlığındakı terrasda, Naxçıvan-Batabat və Naxçıvan-Sədərək magistral yolunun kənarında və Naxçıvan şəhərinin müxtəlif ərazilərindəki yaşıllıqlara aqrotexniki qulluq göstərmiş, həmin ərazilər suvarılmış və alaq otlarından təmizlənmişdir.

Şərurlular Naxçıvan-Sədərək magistral yolunun Aşağı Daşarx kəndindən keçən hissəsində və Şərur şəhərinin park və xiyabanlarındakı yaşıllıqlara aqrotexniki qulluq göstərmiş, “Arpaçay-2” SES yaxınlığındakı bağda dibçək üsulu ilə 60 ədəd meyvə ağacı əkmişlər.

İməcilik günü Babək rayonunun ərazisində də qələbəlik müşahidə edilmişdir. Bölgə sakinləri Naxçıvan-Ordubad magistral yolunun Şəkərabad kəndindən keçən hissəsində və Əshabi-Kəhf ziyarətgahına gedən yolun kənarındakı yaşıllıqlara aqrotexniki qulluq göstərmiş, həmin ərazilər suvarılmış və alaq otlarından təmizlənmişdir.

Bağlar diyarı Ordubad rayonunda da iməciliklər mütəşəkkilliklə keçirilmiş, Dəstə kəndi ərazisindəki 28 hektarlıq meyvə bağında, kənd icra nümayəndəliyi və məktəbin həyətində, Ordubad şəhərinin park və xiyabanlarında yaşıllıqlara aqrotexniki qulluq göstərilmiş, həmin ərazilər suvarılmış və alaq otlarından təmizlənmişdir.

Culfalılar Naxçıvan-Ordubad magistral yolunun kənarındakı, Darıdağ massivindəki bağlara və şəhərin giriş hissəsindəki yaşıllıqlara aqrotexniki qulluq göstərmişlər.

Kəngərli sakinləri Naxçıvan-Sədərək magistral yolunun kənarında, kənd icra nümayəndəlikləri və tam orta məktəblərin kollektivləri öz ərazilərindəki yaşıllıqlara aqrotexniki qulluq göstərmiş, həmin ərazilər suvarılmışdır.

Şahbuzlular Naxçıvan-Batabat magistral yolunun kənarlarındakı bağlara aqrotexniki qulluq göstərmiş, ağaclar suvarılmış, Şahbuz şəhərinin park və xiyabanlarında 2700 ədəd gül kolu əkilmişdir.

Sədərək rayonunun Heydərabad qəsəbəsinin park və xiyabanlarında, qəsəbə tam orta məktəbinin həyətində, mərkəzi xəstəxananın ərazisində və Qaraağac kəndində yol kənarlarında yaşıllıqlara aqrotexniki qulluq göstərilmişdir.

Həmin gün muxtar respublikamızın bütün bölgələrində ahıl vətəndaşların həyətlərində təmizlik, abadlıq işləri aparılmışdır.

İməciliklərdə 24 min 526 nəfər iştirak etmişdir.

**Xəbərlər şöbəsi**

## Asfalt üzərində rəsmçəkmə müsabiqəsi

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı”nın sağlamlıq imkanları məhdud uşaqların istedadlarının aşkara çıxarılması məqsədilə tədbirlərin keçirilməsi bəndinin icrasına müvafiq olaraq, 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə mayın 26-da Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzinin qarşısında asfalt döşəmə üzərində rəsm müsabiqəsi keçirilib.

Müsabiqədə 18 yaşadək sağlamlıq imkanları məhdud 15 uşaq iştirak edib. Müsabiqə iştirakçıları tabaşirlə təbiət və vətənpərvərlik mövzusunda rəsmlər çəkməklə öz bacarıq və qabiliyyətlərini nümayiş etdiriblər.

Münsiflər heyətinin rəyi əsasında Fatma Babayeva, Lamiyə Abbasova və Xanım Qaçaşvilinin çəkdikləri rəsm nümunələri müvafiq olaraq birinci, ikinci və üçüncü yerlərə layiq görülüblər.

Sonda müsabiqənin qaliblərinə mükafatlar, digər iştirakçılara isə həvəsləndirici hədiyyələr təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

“Nəxşicahan Holdinq LTD Şirkətlər qrupu” Məhdud Məsuliyyətli Cəmiyyətinin qeydiyyat şəhadətnaməsi itdiyindən etibarsız sayılır.

### *Bildiriş*

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi tərəfindən 9 aprel 2001-ci il tarixdə qeydiyyata alınmış “Karbon Qazı Zavodu” Açıq Səhmdar Cəmiyyətinin “Karbon Qazı Zavodu” Məhdud Məsuliyyətli Cəmiyyətə çevrilməsi ilə əlaqədar olaraq, 7 fevral 2007-ci il tarixdə dövlət qeydiyyatına alınmış səhmləri dövriyyədən çıxarılaraq ləğv edilir.

### *Allah rəhmət eləsin*

Azərbaycan Respublikası Hesablama Palatasının Naxçıvan Muxtar Respublikası üzrə İdarəsinin kollektivi iş yoldaşları Mirsəid Seyidova, əzizi
**EMİNİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Muxtar Respublikası Dəri-Zöhrəvi Dispanserinin baş həkimi Xədicə Qazıyeva və dispanserin kollektivi Naxçıvan Şəhər Körpələr Evi və Ailələrə Dəstək Mərkəzinin baş həkimi Rəsmiyyə Xasayevaya, qayınatası
**ZÜLFÜNÜN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Kitabxanaçılıq kafedrasının müdiri Nəzakət İsmayılova və kafedranın əməkdaşları iş yoldaşları Aypara və Qəhrəman Behbudovlara, əzizləri
**NOVRUZUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Arif Ağalarov, Xanəli Kərimli, Nizami Quliyev və Tofiq Əliyev iş yoldaşları Aypara və Qəhrəman Behbudovlara, əzizləri
**NOVRUZUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin əməkdaşlarından Mirhəsən Eminov, Tofiq Nəcəfov, Miryasin Eminov və Orxan Cəfərov iş yoldaşları Aypara və Qəhrəman Behbudovlara, əzizləri
**NOVRUZUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Elnur Kəlbizadə
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 468